

# Ədəbiyyat dünyasının məhvəri - ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent*

**2023-cü il ölkəmizdə müstəqil Azərbaycan Respublikasının qurucusu və ideoloqu ümummilli lider Heydər Əliyevin şərəfinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncamda da deyildiyi kimi: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə aparaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".**

Azərbaycan ədəbiyyatı və ümumən, ictimai-elmi fikrinin inkişafında Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev mühüm rol oynamışdır. Bu uzaqgörən liderin müdrik fikirləri ədəbiyyatımızın, eyni zamanda ədəbiyyatşünaslığımızın milli ideyalar istiqamətində inkişafında əvəzsiz mənbə olmuşdur. Hələ konkret elmi yanaşma meyarlarının olmadığı, yanlış fikirlərin, təhlükəli stereotiplərin hakim olduğu bir dönəmdə məhz müdrik liderin fikirləri yeni elmi-tənqidi meyarların müəyyənləşməsinə güclü təkan vermişdir. Müdrik lider ədəbiyyatın milli tale və ictimai inkişafdakı böyük rolunu qiymətləndirərək demişdir: "Bu gün, ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir".

Çoxəsrlik Azərbaycan ədəbiyyatı Ulu Öndər Heydər Əliyev tərəfindən milli ideologiyamızın mənəvi qaynağı, ideoloji zəmini, mənbəyi kimi qəbul edilmiş və qiymətləndirilmişdir. Dahi lider məhz müdrik kəlamları daxilində çoxəsrlik zəngin Azərbaycan maddi və mənəvi mədəniyyətini də Azərbaycançılığın dəyişilməz maddələri kimi təqdim etmişdir. Ümummilli liderin təbirincə milli ədəbiyyat: 1. milli tarixi keçmiş və yaddaş; 2. milli düşüncə, dəyərlər və ideyaların təcəssüm tapdığı mənəvi xəzinə; 3. insanları tərbiyə vasitəsi; 4. diplomatik-siyasi təbliğat və münasibətlərin bir qolu; 5. eləcə də milli mənsubiyyət və ümumtürk düşüncəsinin ideya mənbəyi kimi dəyərləndirilmişdir. Buna görə də milli ədəbiyyata bağlılıq və onun mütaliəsi vətəndaşlıq tərbiyəsində mühüm vasitə olaraq göstərilirdi. Fitri istedad sahibi olan müdrik lider Heydər Əliyevin fikirləri həm də ədəbiyyata metodoloji yanaşma konsepsiyası təcəssüm etdirmiş və ədəbiyyatşünaslığın meyarları kimi də özünə mühüm, əhəmiyyətli yer tapmışdır. Görkəmli elm xadimi akademik İsa Həbibbəyli bu barədə yazmışdır: "Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir. Bu prinsiplər qüdrətli dövlət xadiminin siyasi fəaliyyətinin də təməl şərtlərindəndir. ...Görkəmli dövlət xadimi dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini ardıcıl olaraq həyata keçirmək yollarındakı mübarizəsində ədəbiyyatda dərin iz salmış, köklü ənənələrə malik olan həmin amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla özünün ali məqsədinə nail olmağa çalışmışdır".

Hələ Ulu Öndər Heydər Əliyevin Azərbaycanda Mərkəzi Komitəyə rəhbərlik etdiyi vaxt klassik Azərbaycan ədəbiyyatı və onun görkəmli nümayəndələrinin öyrənilməsi haqqında verdiyi tarixi əhəmiyyətli qərarlar ədəbiyyatşünaslıq elminin milli ideyalar istiqamətində inkişafına böyük təkan vermişdir. Halbuki artıq əsrin 20-30-cu illərindən başlayaraq xalqın milli dəyərləri, tarixi, ədəbiyyatı, mədəniyyəti və görkəmli şəxsiyyətləri unudulma siyasətinə məruz qalmış, xalqın mülkiyyətindən qoparılma cəhdinə düçar olmuşdu. Hətta elə bir dövr gəlmişdi ki, xalqın milli düşüncəsini yaşadan istedadlı ziyalı və ədiblər repressiyaya uğradılır, söz xəzinəsi və mədəniyyət nümunələri isə zərərli ablələr adı altında sıradan çıxarılırdı. Xalqın milli soykökü və qədim, zəngin tarixi düşüncəsini əks etdirən ədəbiyyat nümunələri və görkəmli şəxsiyyətlər məqsədyönlü olaraq tarix səhnəsindən silinirdi. XX əsrin 70-ci illərindən isə artıq Azərbaycanın tarixi taleyində bir Günəş kimi doğan Heydər Əliyev böyük müdriklik və vətəndaşlıq qayğısı göstərərək xalqın milli sərvətini özünə qaytarmış vəzifələrinin icrasına start verdi. Beləliklə, böyük istedadla yaradılmış və xalqın milli keçmişini, mənəviyyatını əks etdirən ədəbiyyat nümunələri xalqın milli sərvəti olaraq qorunmağa və böyük qayğı ilə əhatə olunmağa başladı. Vaxtında verilən müdrik qərarlar Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli və çoxsaylı görkəmli klassik ədəbi şəxsiyyətlərin öyrənilməsi və əsərlərinin nəşrinə böyük imkanlar açdı, ədəbiyyatşünaslığın milli istiqamət almasına ciddi təsir göstərdi. Məhz bu sayədə Azərbaycan ədəbiyyatı milli sərvətimiz olaraq qorundu, ədəbiyyatşünaslıq milli ideyalılıq və elmi prinsiplər üzrə yeni inkişaf yoluna qədəm qoydu.

Azərbaycan xalqı üçün sınaq əsri olan XX əsrin qarışıq və mürəkkəb 90-cı illərində də xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev davamlı müdrik siyasət sayəsində xalqın mənəvi sərvətinin qorunması və inkişafına mühüm stimul verdi. Ulu Öndər həm də 90-cı illərdə yeni ictimai-iqtisadi sistemə keçid dövründə təkcə ictimai-siyasi, iqtisadi sahələrdə deyil, ən əsası milli ictimai düşüncədə dərin ideoloji böhran yaşandığı, meyarların itdiyi bir vaxtda özünün müdrik qərar və fikirləri ilə bu böhranı ortadan qaldırmağa, ideoloji meyarları təsbit və müəyyən etməyə şərait yaratdı. Yeni düşüncə ortaya çıxan bir zamanda məhz dahi, uzaqgörən liderin müdrik düşüncə və qərarları sayəsində milli baxış və təhlil meyarları meydana gəldi. Bu dövrdə də millimənəvi dəyərlərə qayğı başlıca yerdə dayandı. Çünki Ulu Öndərin fikrincə: "...insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yeni insanlığın mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərin formalaşmasına bu qədər güclü təsir edən güclü vasitə yoxdur". Bu baxımdan müdrik liderin vaxtilə ideoloji cəhətdən zərərli abidə kimi xalqın milli sərvəti olmaqdan kənar edilmiş "Kitabi-Dədə Qoprqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqındakı sərəncamı, yubiley mərasimindəki çıxışı da bütövlükdə xalqımızın milli-mənəvi sərvətlərinə, onun tarixi, mədəniyyəti və ədəbiyyatına konkret münasibət tərzinin müəyyən edilməsinə istiqamət verdi. Dövlət müstəqilliyini yenidən bərpa etmiş ölkəmizin dastana bu cür yanaşması ilə həm də ümumtürk birliyi ideyasına münasibətini və çağırışını da ifadə etmiş olmuşdu. Dahi liderin: "Bizim zəngin tarixımiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. ...Bu, bizim ana kitabımızdır... ...Eposun əsas ideyasını qəhrəmanlıq ideologiyası təşkil edir. ..."Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. ...bu epos bizim ümumi sərvətimizdir", - deyə ifadə etdiyi fikirlər həm qorqudşünaslıq kimi yeni bir sahənin elmi əsasını müəyyənləşdirmiş, həm bütövlükdə Azərbaycan şifahi xalq ədəbiyyatına, bütövlükdə xalqın mənəvi sərvətlərinə yeni baxış tərzini müəyyən etmiş, həm də ümumtürk birliyinə çağırışı səsləndirmişdir. Ulu Öndər Heydər Əliyevin hərtərəfli bilik sahibi olması haqda doğru deyilmişdi ki, o, "Mustafa bəy Topçubaşovdan danışanda mütəxəssis həkimdən, Yusif Məmmədəliyevdən danışanda peşəkar kimyaçıdan, Hüseyn Caviddən danışanda filoloqdan və sənətşünasdan daha miqyaslı və ixtisaslı qiymətlər verir". Bu mənada Ulu Öndər Heydər Əliyevin hər bir sahə ilə bağlı söylədiyi fikirlər o elmin, sahənin tədqiqatına yeni istiqamət, meyar vermişdir. Vaxtilə görkəmli ictimai xadim, ədib Nəriman Nərimanov haqqında Ulu Öndərin dediyi fikirlər də təkcə Nərimanov əleyhinə aparılan elmi-ictimai kampaniyalara qarşı deyil, ümumən Sovet dövrü tarixinə, sovetizm qəliblarına qarşıraq ictimai qınaq hədəfinə çevrilmiş bütün görkəmli şəxsiyyətlər əleyhinə yönəldilmiş fikir və stereotiplərə qarşı tutarlı cavab olmuş, ümumən Azərbaycan tarixinin Sovet dövrünə düzgün, obyektiv yanaşma tərzinin formalaşmasına stimul vermişdir.

Dahi lider ayrı-ayrı görkəmli söz ustadları, böyük klassiklər - Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsimi, Xətayi, Vaqif, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və başqaları barəsində danışarkən onları təkcə ədib, şair, yazıçı kimi deyil, həm də bir mütəfəkkir, filosof olaraq da təqdim edir, tədqiqatların istiqamətini məhz bu məcrada aparılması konsepsiyasını göstərirdi. Ulu Öndər: "XX əsrin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün ...bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır", - deyə böyük klassiklərin yaradıcılığını, ümumən milli ədəbi düşüncə və sərvəti milli ideologiyamızın mənbəyi kimi təqdim edir, xalqın milli sərvətinə həm də milli məfkurə yönündən araşdırma zərurətini ifadə etmiş olurdu. Həmçinin müdrik liderin böyük şair Hüseyn Cavidlə bağlı dediyi fikirləri də ədəbiyyatşünaslıq elmimiz üçün milli konseptual istiqamət, yanaşma tərzi müəyyənləşdirmiş oldu. Sovet dövründən ziddiyyətli fikirlər qarşısında qalan Hüseyn Cavid irsi və şəxsiyyəti haqqında obyektiv milli yanaşma meyarını məhz dahi liderin müdrik fikirləri müəyyənləşdirdi. Ulu Öndərin vətəndaşlıq cəsarəti nəinki Cavidin nəşini öz doğma torpağına gətirməyə müvəffəq oldu, həm də bu əbədiyaşar sənətkarın ölməz irsinə həm də əsl bəraət və ikinci həyat bəxş etmiş oldu. Ulu Öndərin: "Hüseyn Cavidi Şərqin Şekspiri adlandı-rır-lar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsər-lə-rin-dəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"un-dan geri qalmır" kimi fikirləri görkəmli filosof, şair Hüseyn Cavid yaradıcılığına ədəbi-estetik təhlil, yanaşma metodunu təsbit etməklə bərabər onun Azərbaycan və dünya ədəbiyyatındakı yerini, mövqeyini müəyyənləşdirmiş, həm də bütövlükdə Azərbaycan romantizminə yanaşma metodu və tərzini də ədəbi cəhətdən müəyyən etmişdir.

*ardı səh: 12*

əvvəli səh: 10

Ümumiyyətlə, qeyd edilməlidir ki, ayrı-ayrı görkəmli adamlarımızın Azərbaycan xalqının mənəvi sərvətləri içərisində yerini və mövqeyini müəyyənləşdirmək baxımından dahi şəxsiyyət Heydər Əliyevin fikirləri müstəsna əhəmiyyətə malik olmuşdur. Ulu Öndərin Nizami, Nəsimi, Füzuli, Xətayi, Vaqif, Mirzə Cəlil, Cavid və başqaları haqqındakı fikirlərində şəxsiyyətlərə həm filosof kimi yanaşma meyli özünü aydın ifadə edir, həm də dünyaca şöhrətləri və ədəbi mövqelərinə də diqqət çəkilirdi.

Ulu Öndər milli ədəbiyyatımızı həm də ümumtürk kontekstində öyrənməyin zəruriliyini də ifadə edir, ədəbiyyatşünaslıq elmi üçün ədəbi sərvətlərə yanaşma tərzinin bu istiqamətini də təqdim edirdi. Yaşadığımız dövr üçün son dərəcə zəruri olan bu yanaşma üsulu ədəbiyyatımıza vahid, məqsədli, milli ideologiyalı, ümumtürk və ümumdünya düşüncəli ədəbi konsepsiya müəyyənləşdirmiş oldu. Müdrik lider Heydər Əliyev ədəbiyyata həm də xalqların dostluq və mədəniyyətlər körpüsü kimi yanaşaraq "Xalqların dostluğu ədəbiyyatların dostluğudur" deyirdi. Qardaş Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisindəki çıxışında böyük Azərbaycan şairi Məhəmməd Füzulinin yaradıcılığı timsalında bu münasibətlə demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır". Dahi liderin uğurlu ədəbiyyat təlimi bu gün də uğurla davam etdirilir.

Beləliklə, Ulu Öndər Heydər Əliyev Azərbaycan elmi-ictimai fikrinin inkişafına özünün müdrik fikirləri ilə yeni güc qatmış, onun ideya-estetik, elmi meyarlarının müəyyənləşməsində mühüm rol oynamışdır. Azərbaycan xalqının hərtərəfli həyatında məhz bu cür müdrik davranış və xilaskarlıq missiyası həyata keçirmənin nəticəsi idi ki, dahi lider Heydər Əliyev liderlikdən ümummilli liderliyə ucalaraq əbədiyaşarlıq qazanmışdır.

Qətiyyətlə deyə bilərik ki, bu gün ölkəmizdə həyata keçirilən çoxsaylı işlər və qazanılan nailiyyətlər Ulu Öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Böyük dühalara göstərilən ehtiram, mədəniyyət, elm, sənət, ədəbiyyat xadimlərinə hörmət və qayğı və s. Ulu Öndərin zəngin və mütərəqqi təcrübəsindən qalan uğurlu bir ənənədir. Ölkəmizdə 2019-cu ilin Nəsimi, 2021-ci ilin Nizami ili elan olunması da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi Heydər Əliyev siyasi kursunun tərkib hissəsidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın böyük qələbəni qazanması, müqəddəs Şuşa şəhərinin işğaldan azad olunması, habelə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qərarı ilə müqəddəs Azərbaycan ocağı olan Şuşa şəhərinin Mədəniyyət Mərkəzi elan olunması, xalqımızın böyük mütəfəkkir-şairi Molla Pənah Vaqifin erməni vandalizminin zülmünə məruz qalmış Xatirə məqbərəsinin yenidən bərpası, Vaqif Poeziya Günlərinin Şuşa şəhərində qeyd edilməsi və çoxsaylı digər tədbirlər Heydər Əliyev yolundan natamam qalan taleyüklü məsələlərin həyata keçirilməsi baxımından böyük nailiyyətləri təzahür etdirir. Bütövlükdə, torpaqlarımızın işğaldan azad edilməsi və yenidənqurma, quruculuq işlərinin həyata keçirilməsi, dünya azərbaycanlılarının hüquqlarının qorunması, doğma ata-baba yurdu Qərbi Azərbaycana qayıdış və s. Heydər Əliyev siyasətinin davamı və yeni mərhələdə qələbəsi, təntənəsi kimi çıxış edir, həmçinin xalqımıza böyük gələcək vəd edir!